*TARIX, ANTROPOLOGIYA VƏ SİYASİ ELMLƏR*

**UOT:930.85.**

# TOXUCULUQDA XALÇA SƏNƏTİ

***Məmmədova Şəhla İntiqam qızı***
***Azərbaycan Dövlət Aqrar Universiteti***
gceferova@rambler.ru

**Xülasə:** *Məqalə Azərbaycanın qədim el sənəti olan xalçaçılıq və onun toxuculuqda yeri haqqındadır. Toxuculuqda xalça sənətinin rolu, xalça toxumada olan mərhələlər, toxuma zamanı istifadə olunan alətlər və məmulatlar haqqında məlumat verilir. Azərbaycan xalçaları dünyanın ən məşhur xalçaları sırasında yer alır. Qarabağ, İrəvan, Gəncə, Quba, Şirvan, Şəki, Təbriz və digər xalçalar istər orta əsrlərdə, istərsə də müasir dövrdə öz şöhrəti ilə seçilmişdir.*

*Azərbaycanın orta əsr toxuculuq sənətində özünəməxsus yerlərdən birini xalçaçılıq tutmuşdur. İlk orta əsrlərdə xalq məişatində istifadə olunan xalçalar klassik və son orta əsrlərdə də öz inkişafi ilə seçilmişdir. Xalça toxuculuğunun mərhələləri, onun hazırlanması, bu zaman istifadə olunan alətlər və məmulatlar, eləcə də, xalçaçılıq məktəbinin əsrlərdir davam edən ənənələri onun ərsəyə gəlməsində xüsusi rol oynayır.*

**Açar sözlər:** Azərbaycan, toxuculuq, arxeologiya, xalça, etnoqrafiya
**Ключевые слова:** Азербайджан, ткачество, археология, ковер, этнография
**Key words:** Azerbaijan, weaving, archaeology, carpet, ethnography

Xalça toxumaq üçün aşağıdakı alətlər lazımdır:

1. Həvə və ya toxmaq (toxucuların sayına uyğun);
2. Kirkid və ya daraq (toxucuların sayına uyğun);
3. Qayçı (toxucuların sayına uyğun);
4. Bıçaq (toxucuların sayına uyğun);
5. Qarmaqlı bıçaq (toxucuların sayına uyğun);
6. Divar hanası, yaxud da yer hanası.

Həvə xalça, palaz və s. toxuyarkən ilmələri döyüb yerində bərkitmək üçün (bəzi heyvanların buynuzundan, yaxud dametaldan və s.-dən hazırlanan) ucu kəsik, dişli alətdir. Azərbaycanın bəzi bölgələrində bu aləti toxmaq da adlandırırlar. Keçmişdə birinci arğacı vurmaq üçün möhkəm oduncaqdan hazırlanan dişli həvələrdən istifadə edirdilər. Primitiv həvələrin (toxmaqların) sapı (tutacağı) istifadə zamanı narahat idi, dişlər arasındakı məsafə ərişin sıxlığına hər zaman uyğun gəlmirdi. Zaman keçdikcə digər alətlər kimi bu alətlərində forma və texniki xüsusiyyətləri təkmilləşmiş, həvənin (toxmağın) dişlərinə metal ucluqlar əlavə edilmişdir. Arğacın hamar salınması üçün nəzərdə tutulan texnoloji tələblərə tam cavab vermədiyi üçün bu alət sonda tam metaldan hazırlanmış, müasir həvələrin (toxmaqların) ilk nümunələri meydana gəlmişdir. Metal həvələr (toxmaqlar) XV – XVI əsrlərdən başlayaraq xalça emalatxanalarında istifadə olunmuş və XIX əsrdə isə metal həvələr (toxmaqlar) tam təkmilləşmişdir. Xalçanın hər kvadratmetrində olan ilmələrin (düyünlərin) sıxlığına uyğun olaraq metal həvələrdəki (toxmaqlardakı) dişlərin sayını, qalınlığını və onun çəkisini nəzərə alırdılar (1; 4; 5).

Kirkid xalça toxuyarkən toxunmuş ilmələri sıxlaşdırmaq üçün işlədilən alətdir. Azərbaycanın bəzi bölgələrində bu aləti daraq da adlandırırlar. Adətən, ikinci arğacı salmaq üçün də kiriddən istifadə edirdilər. Əvvəllər kirkidi ağacdan və yaxud da buynuzdan hazırlayırdılar. Kirkidin iki, üç və ya dörddişi olur. Zaman keçdikcə digər alətlər kimi bu alətlərində forma və texniki xüsusiyyətləri təkmilləşmiş, kirkitin dişlərinə metal ucluqlar əlavə olunmuşdur. Arğacın hamar salınması üçün nəzərdə tutulan texnoloji tələblərə tam cavab vermədiyi üçün bu alət sonda tam metaldan hazırlanmış, müasir kirkidlərin ilk nümunələri meydana gəlmişdir.

Xalça toxunuşunun ilk dövrlərində qayçıdan istifadə edilməsədə sonralar xalçaların xovunun hamarlığını əldə etmək üçün evdə işlənən adi qayçılardan istifadə edildi. Əvvəllər adi qayçıların istifadəsi xalçanın keyfiyyətinə yaxşı təsir etsədə barmaqların sərbəst hərəkətini çətinləşdirdi. Belə qayçılar xalçanın keyfiyyətini bir qədər aşağı salırdı. Adi qayçılar tədricən təkmilləşirdi və XIX əsrdə xüsusi xalça qayçıları meydana gəldi. Hal-hazırda Azərbaycan xalçaçılığında yüngül və rahat qayçılardan istifadə edilir. Bu cür qayçının qolları sərbəst hərəkət edir, qolların arxasındakı halqalar kəsici hissələrə nisbətən hündür olur . Texniki normalara uyğun gələn xovun əldə edilməsi üçün bu cür qayçılar çox rahatdır. Əvvəllər ilmələrin bağlanması və xovun kəsilməsi barmaqlarla, heç bir qurğu olmadan həyata keçirilirdi. Bu isə xalçanın toxunuş keyfiyyətini aşağı salır, estetik səviyyəsinə təsir göstərir. Xalça toxuculuğunun inkişafı nəticəsidə iplərin kəsilməsi üçün əvvəlcə sadə bıçaqlar tətbiq olumağa başladı. Yaxın keçmişə qədər xalça toxuculuğu zamanı ipliklərin kəsilməsi məqsədilə dəmirçilərin düzəltdiyi sadə bıçaqlardan istifadə edilirdi. Toxuculuq inkişaf etdikcə ipliklərin kəsilməsi üçün adi mətbəx və cib bıçaqları, XIX əsrin əvvəlində isə qarmaq bıçaqlardan istifadə edilməyə başlanmışdır. Adi bıçaqlar kənd yerlərində əsas hallarda köhnə dəryazdan (kərənti) hazırlanırdı. XIX əsrin əvvəlində istifadə edilməyə başlanan müasir bıçaq-qarmaq, kəsən hissə və tutacaqdan ibarətdir və bıçağın qarmağından səhvi düzəltmək, ilmələri açıb yenidən bağlamaq üçün də istifadə olunur. Müasir bıçaq-qarmaq vasitəsilə əriş ipikləri tutur, ilmə bağlayır və ipliyi kəsir. Sadə bıçaqların sapı (tutacaqları) adətən ağacdan, təsadüfi hallarda sümükdən olardı. Müasir bıçaqların sapı (tutacaqları) isə ağacdan, plasmasdan və ya fibradan hazırlanır. Bundan başqa hər bir toxucu öz əlinin ölçüsündən asılı olaraq bıçaqların sapının (tutacağının) və tiyəsinin uzunluğunu müəyyənləşdirirdi. Qarmaqlı bıçaqlar əsasən iki formada olur: ilmələrin bağlanması və ilmələrin açılması üçün bıçaq. İlmələrin bağlanması üçün nəzərdə tutulan bıçaq xalça toxuculuğunda əsas alət hesab olunur və ondan xovlu ilmələrin bağlanması üçün istifadə olunur. İlmələrin açılması üçün istifadə edilən boğazı uzun, tiyəsi küt bıçaqlar yalnız xalçaların restavrasiyasıda və səhvlərin düzəldilməsində istifadə edilir. Belə bıçaqlardan xaça toxunması zamanı istifadə edilmir. Adi bıçaq və qarmaqlı bıçaqdan əlavə xalça toxuculuğunda və xalçaların restavrasiyası zamanı bölgülü sapı (tutacağı) olan bıçaqlardan da istifadə edilir. Toxucular bu bıçaqlardan xovun uzunluğunu, xalçanın sıxlığını, eləcə də bəzək detallarını ölçmək üçün istifadə edirlər (1; 5).

Qədim zamanlardan bizim günlərə qədər əllə toxunan xalçaları hana adlanan sadə dəzgahlarda toxuyurdular. Hana, paralel və əks tərəfləri olan dördbucaqlı şəklində toxucu dəzgahdır. Hananın iki növü mövcuddur; yer hanası (üfiqi dəzgahlar) və divar hanası (şaquli dəzgah). İlk öncə yer hanası meydana gəlmiş, toxuculuqda ondan geniş istifadə edilmişdir. Yer hanası aşağıdakı əsas hissələrdən ibarət olur: 1) "Qılınc" adlanan zərbə aləti (1 ədəd). 2) Köndələn dolağac (2 ədəd). 3) Dirək (mıxça) (4 ədəd). 4) Vərəngalan (1 ədəd). 5) Küjü (kücü) ağacı (1 ədəd). 6) "Çatma" adlanan qollar (3 ədəd). 7) Asma iplər (2 ədəd). 8) Ağız çubuğu (1 ədəd). 9) Çarpaz çubuq (1 ədəd) (1; 5).

Yer hanası getdikcə təkmilləşmiş və zaman keçdikcə şaquli şəklə salınaraq divar hanası adlanan toxucu dəzgah şəklinə düşmüşdür. Divar hanası isə aşağıdakı hissələrdən ibarət olur: 1) Qollar (2 ədəd); 2) Oxlar (2 ədəd); 3) Yan ağacları (2 ədəd); 4) Vərəngalan (1ədəd); Vərəngalanın uzunluğu oxların qollar arasındakı uzunluğuna bərabər olmalıdır. 5) Çubuq (2 ədəd); Çubuqlar oxların qollar arasındakı uzunluğuna bərabər olmalıdır. 6) Küjü ağacı (1ədəd) (1; 5).

Şaquli toxucu dəzgah olan divar hanası əriş saplarla dartılmış dördbucaqlı taxta çərçivədir. Toxucu dəzgah olan divar hanası ustalara təsvirin xətləri vərəngləri ilə çevik işləmək imkanı verir. Hər bir hana ensiz hamar çubuq ilə təchiz olunmuşdur. Arğac ipliyin keçirilməsi üçün əriş saplarda boşluğun yaradılması bu çubuq vasitəsilə həyata keçitrilir. Xalça toxuculuğunda istifadə edilən materiallara (təbii və süni olmasından asılı olmayaraq) və onlarda əmələ gələn müxtəlif növ ipliklər xalça toxuculuğu məmulatları adlanır. Xalça

toxuculuğunda istifadə edilən məmulatların alınması mənşəyi və kimyəvi tərkibinə görə iki qrupa bölünür: təbii məmulatlar və süni məmulatlar. Təbii məmulatlar elə materiallardan alınır ki bunlar əsasən təbii yolla insanın bilavasitə iştirakı olmadan təbiətin özündə formalaşmış materiallardan hazırlanır. Təbii materiallar üç qrupa bölünür: 1-bitki mənşəli məmulatlar 2-heyvan mənşəli məmulatlar 3-mineral mənşəli məmulatlar. Süni məmulatlar isə zavod şəraitində əsas etibarı ilə kimyəvi yolla insanların bilavasitə iştirakı ilə alınır. Süni məmulatlar təbii, yaxud süni materialların mürəkkəb kimyəvi və fiziki emalı nəticəsində alınır (1; 5).

Qədim xalçaların toxunması zamanı ancaq təbii iplikdən, həmçinin təbbi məmulatlardan istifadə edilmişdir. Belə xalçaları toxumaq üçün aşağıdakı məmulatlar lazımdır: Müxtəlif növ (əsasəndə zərif növlü), müxtəlif rəngdə (ağ, qara, boz, çal, qonur, qumral və s. rəngdə olmaqla) yun, müxtəlif rənglərdə rənglənmiş ipliklər (ipək, pambıq), əriş və arğaclar.

Xalça toxunuşunda yun, ipək, pambıq ipləri ilə yanaşı ağac qabığı və budağı, at quyruğu, kənaf, qızıl və gümüş tellər, qiymətli daş-qaşlar, qadının baş tükü və s. tətbiq olunur. Əllə toxunmuş qədim xalçaların istehsalında ən tez-tez rast gəlinən material qoyun yunudur. Düzgün ipliyin seçilməsi və onun işlənməsi çox vacibdir, çünki yun ipinin keyfiyyətindən xalçanın möhkəmliyi, yumşaqlığı və rəng çalarların parlaqlığı asılıdır. Son dövrlərdə çox vaxt, arğac bünövrəsi üçünpambıq iplikdən istifadə olunur.

Xalçaların istehsalında ipəkqurdunun baramasından hazırlanmış ipəkdən də istifadə olunur. İpək daha davamlı olduğu üçün ondan alınan ipliklər daha möhkəm olur və bu ipliklər mürəkkəb naxışlı xalçaların istehsalında işlənilir. Süni boyaların geniş yayılmasına baxmayaraq, xalçaçılıq sənayesində bəzi fərdi toxucular və istehsalçılar bu günə qədər, keçmişdən qalmış adətlər üzrə hazırlanan, təbii boyalardan istifadə edirlər. Müasir xalçaların toxunuşu zamanı müxtəlif təbii və süni iplik materiallardan, eləcədə onların qarışığından istifadə edilir. İplik materialların seçilərkən onların kimyəvi və mexaniki cəhətdən xeyli davamlılığı, zahiri görnüşünün gözəl olması, həmçinin istehsalının sadəliyi və dəyərinin ucuz olması nəzərə alınır. Bu nöqteyi-nəzərdən əsasən poliamidin (neylon) və polipropilendən, yun və yun qarışıqlardan, poliesterdən və bunlara bənzər digər süni ipliklərdən daha çox istifadə edilir. Yundan ipliklərin alınması aşağıdakı ardıcıllıqla həyata keçirilir: 1) Yunun təmizlənməsi; 2) Yunun daranması; 3) Əlçimlərin əyrilməsi; 4) Kələflərin hazırlanması (1; 5).

Xalça toxunması zamanı ipliklərin boyanması əsas işlərdən biri hesab olunur. Qədim zamanlardan başlamış XIX əsrin axırlarından XX əsrin əvvəllərinəqədər toxucular müxtəlif bitkilərin yarpaq, çiçək, tumurcuq, meyvə, toxum, qabıq, oduncaq, kök və digər hissələrindən çox sənətkarlıqla alınan boyaq məhsulları hazırlayıb yun, ipək və pambıq ipliklərin boyanmasında istifadə etmişlər. Hələ qədim zamanlardan ipboyama (boyaqçılıq) üsullarının ibtidai vəziyyətdə olmasına baxmayaraq boyanmış iplər öz rənglərinin möhkəmliyi, şuxluğu, rəng müxtəlifliyi, dolğunluğu ilə seçilirdi. İpliklərin boyanması prosesini üç əsas mərhələyə ayırmaq olar: ipliklərin boyanmaya hazırlığı mərhələsi, ipliklərin boyanbması mərhələsi, boyanmış ipliklərdə boyağın möhkəmləndirilməsi mərhələsi (1; 4; 5).

Nəhayət xalçanın toxunma prosesi bu mərhələlərdən sonra əsas funksiyaların həyata keçirilməsi ilə davam edir. Xalçanın toxunma prosesi bir neçə hissədən ibarətdir:

Xalçanın toxunmasına hazırlıq işləri: Xalçanı toxuyan şəxs xalça toxumaq üçün məmulatlar hazırlayan zaman gələcək xalçanın ölçüsünü, onun ilmələrinin sıxlığını, naxışların və kompozisiyanın xarakterini (çeşnisini) və bir çox digər amilləri nəzərə almalıdır.

Xalçanın toxunması zamanı əriş və arğac ipliklərin hanada (toxuculuq dəzgahında) bir-birinə ardıcıl olaraq toxunması nəticəsində xalçaların quruluşu formalaşır, toxuculuq işi həyata keçirilir. Hal-hazırda isə müxtəlif xalçaların istehsalı üçün olduqca müxtəlif növ hanalardan (toxucu dəzgahlarından) istifadə olunur (1; 5).

Xalçanın uzadılması: Hananın uzadılması xalçanın toxunması zamanı əsas işlərdən biridir. Divar hanasında (dik hanada) müxtəlif ölçülü xalça-palaz məmulatı toxunduğundan

onun qollarının yuxarı hissəsində açılmış yarıqlar vasitəsilə üst oxun mövqeyi dəyişdirilir və beləliklə də məmulatın boyuna müvafiq ölçüdə əriş düzümü qurulurdu. Əriş iplikləri divar (dik) hanasına, adətən, 2-3 nəfər qadın köməkli düzürdü. Onlardan ən səriştəlisi alt oxun önündə oturub əlindəki yumaqdan açdığı ərişin ilgəyini hananın qarşısında ayaq üstə dayanan qadına, o isə öz növbəsində üst oxa yaxın olan üçüncü qadına ötürürdü. Üst oxun üstündən hananın arxasına aşırılmış ilk əriş tayının ucu alt oxun önündə ağız çubuğuna bağlanırdı. Yuxarıda dayanan qadın qəbul etdiyi növbəti əriş ilgəyini üst oxun üzərindən aşırıb ikinci dəfə aşağı qaytarırdı. İkinci qadın onu alt oxun arxasından fırlatmaq üçün birinci qadına ötürür, o isə öz növbəsində ərişin ilgəyini ağız çubuğuna salırdı. Qadınların ən səriştəlisi yumaqdan çözələdiyi əriş taylarını qoşalayıb yenidən ayaq üstə dayanana, o isə özündən yuxarıdakı qadına ötürürdü. Bu qayda ilə hana oxlarına məmulatın eninə kifayət edəcək müvafiq miqdarda əriş düzülürdü. Əriş düzümü tamam olandan sonra sonuncu tayın ucu ağız çubuğunun başına bağlanırdı. Arğac ipini əriş taylarının çarpazlarının arasından keçirmək və ilmə "vurmaq", başqa sözlə, rəngli bəzək ipini bənd etmək üçün hananın qabaq tərəfinə düşən əriş tayları ağız çubuğu vasitəsilə alt-üst (erkək-dişi) olmaqla, iki qismə bölünürdü. Bundan sonra hananın orta hissəsindən bir qədər aşağıda küjü çubuğu (gücü çubuğu) və küjü (gücü) ipinin köməyi ilə ərişin qabaq tayları gücülənirdi (1; 5).

Xalçanın toxunması: Toxuma prosesi arğac ipinin əriş taylarının arasından keçirilməsi ilə başlanırdı. Bu məqsədlə müvafiq rəngli arğac ipləri xırda kələfcə halına salınırdı. İlk arğacın ucu ağız çubuğunun sağ kənarına bağlanandan sonra dal ağacı yuxarı qaldırılaraq əl ilə əriş taylarının üzərindən basılırdı. Bunun sayəsindəküjü ağacının (gücü ağacının) alt hissəsində əriş taylarının dal-qabaq vəziyyəti dəyişib bir-birindən azca aralanırdı (əlin sərbəst işləməsi üçün). Arğac ipi əriş taylarının arasından hissə-hissə, sağdan sola və əksinə olmaqla keçirildikcə kirkid vasitəsilə döyəcləyib aşağı yatızdırılırdı. Bir qayda olaraq, xalça-palaz məmulatının "dəhnə" adlanan "ağız" (baş) və ayaq hissələri kətansayağı bəsit toxuma texnikası ilə hazırlanırdı. Bir başa ötürülən arğac keçirmələrindən fərqli olaraq, rəngli ilmə ipləri xüsusi qaydada dolama üsulu ilə hər dəfə bir cüt ərişə bənd edilirdi. Bunun üçün sol əlin orta və şəhadət barmağı ilə, alt-üst olmaqla, bir cüt əriş tayı götürülüb müvafiq ilmə ipinin sərbəst ucu onların arasından içəri keçirilərək, əvvəlcə ərişin sol tayına dolanıb geri qaytarılır, sonra isə sağ tayın ətrafına fırladılmaqla yenidən qoşa tayların arasından bayıra çıxarılırdı. İlmə aşağı dartışdırılıb arğacın üzərinə endiriləndən sonra ilmənin ucu qarmaqlı bıçaq ilə kəsilirdi. Bu qayda ilə çeşnini əmələ gətirən bəzək ünsürlərinin tələbindən asılı olaraq, müvafiq rəngli iplə növbəti ilmələr yan-yana qoşa əriş taylarına bənd edilirdi. Bu əməliyyat toxuculuq sənətində "ilmə çalma" adlanırdı. Bir çin ilmə düzümü əriş taylarına bəndlənib qurtarandan sonra xovların ucları çəkişdirilirdi. Hər ilmə çininin üzərindən əvvəlcə sağdan sola, sonra isə soldan sağa olmaqla, bir cüt arğac keçirilib kirkit və həvə vasitəsilə döyəclənirdi. İlməni döyəcləyib bərkitmək məqsədilə üç və ya dördqat bükdərilmiş xüsusi "küjü (gücü) ipi" işlənirdi. Hər 2-3 ilmə çini hazır olandan sonra xovların ucu səriştəli toxucu tərəfindən xüsusi ilmə qayçısı ilə müvafiq uzunluqda xov saxlanılmaqla qırxılıb bərabərləşdirilirdi. İki-üç çərək toxunandan sonra üst oxun çivləri (pazları, paraları) boşaldılıb əriş taylarının düzümü sərbəstləşdirilir və məmulatın toxunmuş hissəsi vərəngalanın köməyi ilə fırladılaraq hananın alt oxunun arxasına keçirilir. Sonra çivlər (pazlar, paralar) yerbəyer edilərək bərkidilir və hana yenidən tarazlanır və toxuma prosesi bu qayda ilə davam etdirilir (1; 5).

Xalçaların toxunuşu zamanı vurulan ilmələr (düyünlər) əsasən iki üsulla toxunur: "Simmetrik" ("Türkbaf") və "Assimmetrik" ("Farsbaf"). "Simmetrik" ("Türkbaf") ilmə toxunuşu (düyün vurulması) qüllabi ilməyə (düyünə) müasir xalça elmində verilən addır. Bu növ ilmə toxunuşu (düyün vurulması) əsasən türk xalqları ilə əlaqələndirilir. Farslar da xalça toxunuşunda "simmetrik" ("türkbaf") toxunuş üsulundan istifadə etmişlər. Xalça toxuculuğunda ilmələrin düyünlənməsi əsasən "simmetrik" ("türkbaf" və ya "yandansalma")

üsulu ilə həyata keçirilir. "Simmetrik" ("Türkbaf") üsulu ilə toxunan xalçalarda ilmələr ərişin iki sapı ətrafında bağlanır. "Simmetrik" ("türkbaf" və ya "yandansalma") üsulunda ilmənin uclarından biri ərişin bağlanan sapları arasından keçirilir. "Assimmetrik" ilmə və ya "farsbaf" (düyün) adlanıb və xovlu xalça toxunuşunda istifadə edilən ılməyə 1980-cı illərdən sonra mütəxəssislər tərəfindən verilən addır. "Asimmetrik" ("Farsbaf") ilmə (düyün) farsların adı ilə bağlıdır, bu cür toxunuşu həmçinin Sennehi (Sehna) və yaxud da sadəcə fars düyünüadlandırırlar. "Aradansalma" üsulu rəsmin və ornamentin böyük dəqiqliyi tələb olunan zaman, köhnə xalçaların restavrasiyasında, həmçinin ipək saplarla aparılan işlərdə tətbiq olunur. Əmək məhsuldarlığını artırmaq, bütün prosesi sürətləndirmək məqsədilə və istehsalın effektivliyi üçün "yandansalma" üsulu tətbiq olunur (5).

Xalçanın kəsilməsi: Xalçaya axırıncı ilmələr vurulmaqla toxuma işi yekunlaşır. Xalçanı kəsmək (bəzi bölgələrdə bu proses hananın kəsilməsi adlandırılır) üçün hazırlıq işləri aparılır. Bunun üçün bir neçə çərək arğac ipi əriş taylarının arasından keçirilərək kirkid və həvə ilə möhkəmcə döyəcləyib aşağı oturdulmaqla bərkidilir. Sonra qayçı vasitəsi ilə əriş ipliklər kəsilir. Hərdən bir (bir neçə satimetrdən bir) arğac ipliklərin sökülməməsi üçün kəsilmiş ərişlər düyünlənir. Xalça kəsildikdən sonra geniş və təmiz bir yerə sərilərək toz və ip qırıntılarından təmizlənir. Əl ilə toxunan əksər xalçalar zərif və elastik ipək və ya yundan hazırlandıqları üçün onlarda eninə və ya uzununa qeyri mütənasiblik-əyrilik müşahidə edilir. Bu qüsurun aradan qaldırılması üçün xalçalar taxta döşəmələr üzərində baş və ətək, yaxud hər iki yanından yerə tarım çəkilir. Düz mərkəzindən isə köməkçi ağaclar vasitəsilə xalça qaldırılaraq bu yaranmış hündürlükdə arxa tərəfindən ütülənir və yenidən yerə tarım çəkilərək təxminən iki gün bu vəziyyətdə saxlanılır. Nəticədə xalçada müşahidə edilən əyrilik aradan qaldırılır, onun bütün sahəsi bərabər vəziyyət alır. Xalçaların çeşnisi yaddaşda qalan təsvir əsasında toxunmuş, nəbati, həndəsi , bədii üslubunda və astral, totemik, zoomorf motivlərin sistemində təzahür etmiş spesifik xüsusiyyətlərə malikdirlər. Toxunmuş xalçalar müxtəlif hissələrə bölünür və hər bir hissənin öz adı, xüsusiyyəti, xalça üzərində tutduğu yer mövcuddur. Haşiyə zolaqları, yerlik, göl, buta, kətəbə və s. Haşiyə bəzəkli çərçivə daxilində, mətn ətrafında bəzəkli naxışlardır. Azərbaycanın şimal-şərqində "şam", "ələm", Qarabağda "yelən", Cənubi Azərbaycanda isə "haşiyə" adlanan enli və ensiz zolaqlara deyilir (1; 2; 3). Bütün dekorativ sənət abidələrində xüsusi ilə xalça və memarlıq sənətində geniş mövqe tutmuş naxış silsiləsindən təşkil olunmuş minlərcə kompozisiyalardan ibarətdir. İstər müstəvi, istərsə də həcmli formada olan sənət nümunələrinin bəzəyində haşiyə zolaqları böyuk rol oynayır. Bunlar sahələri çərçivələndirir, onu müxtəlif istiqamətlərdə (şaquli, üfiqi, maili) hissələrə bölür və yaxud sərbəst və bitkin bir kompozisiya kimi əşyalar üzərində mövqe tuturlar. Xalçalardakı enli və nazik haşiyələr bunlardır: "Su"lar; "Alamuncuq"lar; "Siçandişi"lər; "Mədaxil"; "Zəncirə"; "Balahaşiyə"; "Arahaşiyə"; "Çag"lar (1; 5).

Göl dekorativ və tətbiqi sənət nümunələrində, o çümlədən, xalçaçılıq sahəsində geniş yayılan naxış elementlərindən biridir. Göl müxtəlif vaxtlarda və müxtəlif bölgələrdə müxtəlif cür adlandırılmışdır.Türkdilli xalqların, o çümlədən azərbaycanlıların gölə (medalyona) verdikləri addır. Xalça sənətində gölü "medalyon", "xonça", "türünc", nadir hallarda isə "tabaq", farslar isə "torənc" (torang) adlandırırlar. Kiçik ölçülü gölə (medalyona) isə "gölçə" adı verilmişdir. Göl xalçaçılıq sahəsində geniş yayılan naxış elementləri olmaqla yanaşı digər dekorativ və tətbiqi sənət nümunələrində də istifadə ounur. Gölün "kvadrat biçimli göl", "dəyirmi biçimli göl" kimi növləri vardır (1; 5).

Azərbaycan ornament sənətində geniş yayılmış badama-bənzər naxış elementi olan buta xalçaçılıqda daha geniş istifadə olunmuşdur. Xalçalarda yüzdən artıq bir-birindən fərqlənən buta rəsmləri vardır: "evli buta", "arvaduşaqlı buta", "gülabdan buta", "həmli buta" və s. İslimi Yaxın Şərq, o cümlədən Azərbaycan dekorativ-tətbiqi sənətinin bütün sahələrində istifadə edilən yarpağa bənzər bir və ya iki qanadlı naxış elementidir. İslimi ornament sənətində doldurucu və həm də bağlayıcı elementlərdən hesab edilir. İslimi elementlərinin

formasına görə mürəkkəb olub xalçaların arasahəsində və haşiyə qurşaqlarında geniş tətbiq olunur. Ən çox Cənubi Azərbaycan xalçalarında yayılmışdır. İslimin ən yayılmış formaları bunlardır: Sadə islimilər; Qanadlı islimilər; Haçalı islimilər; Hörmə islimilər; Butalı islimilər; İslimibəndlik. Kətəbə ornament sənətində əsas elementlərdən biridir. Quruluşu uzunsov formalı "gölə" oxşayır. Bir qayda olaraq şer və tarixi rəqəmlər kətəbənin daxilində yazılır. Kətəbədən ən çox Təbriz xalçaçılıq məktəbinin xalçalarının hasiyələrində istifadə edilir (1; 5).

Beləliklə, Azərbaycanda qədim toxuculuq sənətinin mühüm sahəsi olan xalçaçılıq dünyaca məşhur məktəbləri və istehsalı ilə hər zaman seçilmişdir. Təbriz, Qarabağ, Bakı, Quba, Şirvan, Şəki, Gəncə, İrəvan və digər xalça məhsullarının orta əsrlərdə dünya bazarlarında dəyərli istehsal məhsulu olaraq qiymətləndiriləmsi onun Azərbaycan xaçlaçılığının uğurundan xəbər verdiyini göstərir. Müasir dövrdə də bu sahəyə olan diqqət xalçaçılığın uğurla inkişafına və onun müasir formasının tarixi ənənələri saxlamaqla təkamülünə xidmət edir. Azərbaycan xalçaçılığı bu gün də öz ecazkar məhsulları ilə dünya bazarlarında rəqabət qabiliyyətini saxlayır. Milli xalça məhsullarımız Şərq mədəniyyətinin bir hissəsi olaraq dünya toxuculuq sənətinə incilər bəxş etməkdə davam edir.

***Ədəbiyyat***


1. Azərbaycan etnoqrafiyası, Bakı-2007, “Şərq-Qərb” nəşriyyatı. Üç cilddə. I cild
2. Bakı, Şirvan, Quba xalçaları (Kataloq), Bakı, “Ziya”, 2013, 176 s.
3. Qarabağ xalçaları (Kataloq), Bakı, “Ziya”, 2013, 100 s.
4. Qasımov M., Azərbaycanın boyaq bitkiləri. Azərbaycan dövlət Nəşriyyatı, Bakı 1987
5. Керимов Л., "Азербайджанский ковер" (Том II). Баку, "Гянджлик", 1983


## КОВРОТКАЧЕСТВО В ТКАЧЕСТВЕ

***Мамедова Шахла Интигам кызы***

***Резюме***

В статье рассказывается о ковроткачестве - древнем народном искусстве Азербайджана и его месте в ткачестве. Приведена роль коврового искусства в ткачестве, этапы ковроткачества, инструменты и изделия, используемые в ткачестве. Азербайджанские ковры - одни из самых популярных ковров в мире. Карабах, Иреван, Гянджа, Губа, Ширван, Шеки, Тебриз и другие ковры славились как в средние века, так и в наше время.

## CARPET WEAVING IN WEAVING (TEXTILE)

***Mammadova Shahla Intigam gyzy***

***Summary***

The article is about carpet weaving, an ancient folk art of Azerbaijan, and its place in weaving. The role of carpet art in weaving, stages in carpet weaving, tools and products used in weaving are given. Azerbaijani carpets are among the most popular carpets in the world. Karabakh, Irevan, Ganja, Guba, Shirvan, Sheki, Tabriz and other carpets were distinguished by their fame both in the Middle Ages and in modern times.

***Rəyçi: t.ü.f.d., dos.Qoşqarlı Qoşar***
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun 19 aprel 2021-ci il tarixli iclasın 04 saylı protokolu***
***Daxil olma tarixi 21 aprel 2021-ci il***